*Akif CƏFƏROV*
***Baş müəllim***

# HƏMİŞƏ ZİRVƏDƏ

1977-ci ilin fevralı idi. BDU-da kitabxanaçılıq kafedrasında baş laborant vəzifəsində işləyirdim. Bir gün Abuzər müəllim məni yanına çağırıb dedi: «Akif, sən böyük bir kollektivdə işləyirsən, buna görə də bütün işçilərin hörmətini qazanmalısan, tək mənə arxayın olmamalısan». Abuzər müəllimin bu ağsaqqal məsləhəti mənə həmişə həyatımda yol yoldaşı oldu. Elə o vaxtdan başlayaraq Abuzər müəllimin gözəl məsləhətləri istər elmi, istərsə də pedaqoji və ictimai fəaliyyətimdə mənə yardımçı oldu. Bunun nəticəsidir ki, sonrakı illərdə «Kitabxanaşünaslıq və biblioqrafiya» ixtisası üzrə BDU-nun aspiranturasının əyani şöbəsini uğurla başa vurdum və fakültədə pedaqoji fəaliyyətə başladım. Bu illər ərzində əziz müəllimimin zəngin elmi pedaqoji fəaliyyətindən bəhrələndim və ilk dəfə olaraq respublikamızda Abuzər müəllimin rəhbərliyi və köməkliyi sayəsində «Kənd təsərrüfatı kitabxanalarının tarixi» üzrə ixtisas kursunu və proqramını yaratdım. Abuzər müəllimin məsləhəti ilə uzun müddətdir ki, kitabxanaşünaslıq kafedrasının nəzdində «Kitabxanaşünaslıq» dərnəyinə rəhbərlik edirəm. Bu dövr ərzində Abuzər müəllimin yetişdirdiyi neçə-neçə tələbənin fakültə və respublika miqyaslı elmi konfranslarda yüksək səviyyəli, məzmunlu çıxışlarının şahidi olmuşam.

Qarşıdan yubiley gəlir. Bu il dekabr ayında BDU-nun kitabxanaşünaslıq kafedrasının müdiri, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi, kitabxana işinin görkəmli tarixçisi və nəzəriyyəçisi, tarix elmləri doktoru, professor A.Xələfovun 70 yaşı tamam olur. Əziz və hörmətli müəllimimi bu münasibətlə təbrik edir, ona cansağlığı diləməklə Azərbaycan kitabxanaşünaslığının inkişafı naminə yeni-yeni yaradıcılıq zirvələri arzulayıram.